**Asgarova M.P.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.53-65**
**UDC: 343.1**

# Cooperation issues of the International Criminal Court with international organizations and NGO's on legal matters

**Abstract:** The article is devoted to the study of the problems of participation of international organizations and NGO's in the activities implementation of the International Criminal Court. The court's relations with international organizations have a mutual legal character. International organizations cooperate with the Court mainly in the fields of obtaining and disclosure of the information or document, intermediation, providing of judicial assistance, execution of court decisions. The court's cooperation with international organizations has of a procedural nature and is directed not to procedural actions, but to the execution of other actions of a procedural nature. We believe that there are general legislative bases for the implementation of cooperation between NGOs and criminal prosecution bodies in the Republic of Azerbaijan. Such cooperation is more appropriate in the period of pre-trial proceedings. There are no restrictions on the İnternational Criminal Court cooperation with local NGOs.

**Keywords:** International Criminal Court; international organizations; intermediaries; judicial assistance; obtaining and disclosure of the information or document.

## References

1. Criminal Procedure Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46950 (in Azerbaijani).

2. Agreement between the International Criminal Court and the European Union on cooperation and assistance, 10th April 2006. Available at: https://www.icc-cpi.int/sites/default/files/NR/rdonlyres/6EB80CC1-D717-4284-9B5C-03CA028E155B/140157/ICCPRES010106_English.pdf

3. Agreement between the International Criminal Court and the International Committee of the Red Cross on Visits to Persons deprived of Liberty Pursuant to the Jurisdiction of the International Criminal Court ICC-PRES/02-01-06 Date of signature: 29th March 2006 and 13th April 2006. Available at: https://www.icc-cpi.int/sites/default/files/NR/rdonlyres/ A542057C-FB5F-4729-8DD4-8C0699DDE0A3/140159/ICCPRES020106_English.pdf

4. Law On legal assistance in criminal cases of the Republic of Azerbaijan, June 29, 2001, No. 163-IIQ. Available at: https://e-qanun.az/framework/2804 (in Azerbaijani).

5. Co-operation Agreement between the Office of the Prosecutor of the International Criminal Court and the International Criminal Police Organization. 2005-03-22. Law of the Republic of Azerbaijan on legal assistance in criminal cases, June 29, 2001, No. 163-IIQ. Available at: https://www.jus.uio.no/english/services/library/treaties/04/4-06/interpol-cooperation-ag-icc.html

[♦] **Asgarova Matanat Pasha** – Doctor in Law, Professor, Academy of Justice (Azerbaijan). E-mail: matanatasgarova@yahoo.com

6. Council decision 2011/168/CFSP of 21 March 2011 on the International Criminal Court and repealing Common Position, 2003/444/CFSP. Available at: https://eur-lex.europa.eu/eli/dec/2011/168/oj https://eur-lex.europa.eu/eli/dec/2011/168/oj

7. Decision 2006/313 - Conclusion of the Agreement with the International Criminal Court on cooperation and assistance, April 2006. Available at: https://www.eumonitor.eu/9353000/1/j4nvk6yhcbpeywk_j9vvik7m1c3gyxp/vi8rm2zhouyw

8. Ex parte confidential decision on the prosecution motion under Rule 73 for a Rulling concerning the testimony of a witness. Prosecutor v. Blagoje Simic, Milan Simic, Miroslav Tadic, Stevan Todorovic, Simo Zaric, 27 July 1999. Available at: https://www.icty.org/x/cases/simic/tdec/en/90727EV59549.htm

9. Framework agreement between UNESCO and the International Criminal Court, acting in relation to the Trust Fund for Victims (10 September 2021). Available at: https://unesdoc.unesco.org/ark:/48223/pf0000378781

10. Guidelines Governing the Relations between the Court and Intermediaries for the Organs and Units of the Court and Counsel working with intermediaries. 17 March 2014. Available at: https://www.icc-cpi.int/sites/default/files/GRCI-Eng.pdf

11. High-Level Regional Seminar “The International Criminal Court and the Asia-Pacific: past, present and future of the Rome Statute – vision for greater regional solidarity” (14-15 November 2023). Available at: https://www.icc-cpi.int/about/cooperation/high-level-regional-seminar-international-criminal-court-and-asia-pacific-past

12. Interpol issues first Red Notices on behalf of International Criminal Court. Available at: https://www.interpol.int/News-and-Events/News/2006/INTERPOL-issues-first-Red-Notices-on-behalf-of-International-Criminal-Court

13. Interpol and ICC meeting focuses on cooperation. 07 September 2012. Available at: https://www.interpol.int/News-and-Events/News/2012/INTERPOL-and-ICC-meeting-focuses -on-cooperation

14. International Criminal Court – Recommendation 1408 (1999) of the Parliamentary Assembly. Available at: https://rm.coe.int/16804d8320

15. Memorandum of Understanding between the United Nations and the International Criminal Court concerning cooperation between the United Nations Operation in Côte d’Ivoire (UNOCI) and the Prosecutor of the International Criminal Court (with annexes). New York, 20 January 2012 and 23 January 2012. Available at: https://treaties.un.org/Pages/show Details.aspx?objid=08000002803099e7

16. Report on the establishment of an international court to try serious violations of international humanitarian law and on the setting up of a mechanism for the protection of human rights in European states not members of the Council of Europe Doc. 6902**,** 28 July 1993. Available at: https://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewHTML.asp?FileID=7254& lang=EN

17. Resolution 2149 (2014) Adopted by the Security Council at its 7153rd meeting, on 10 April 2014. Available at: https://www.un.org/securitycouncil/s/res/2149-%282014%29

18. Resolution 1644 (27 January 2009) of the PACE, Co-operation with the International Criminal Court (ICC) and its universality. Available at: https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17701&lang=en

19. Rome Statute of the International Criminal Court. Available at: https://www.icc-cpi.int/sites/default/files/RS-Eng.pdf

20. The Fundamental Principles of the International Red Cross and Red Crescent Movement: ethics and tools for humanitarian action / ICRC, International Federation of Red Cross and Red Crescent Societies. November 2015. Available at: https://library.icrc.org/ library/search/notice?noticeNr=42606

21. The Relationship Agreement between the United Nations and the International Criminal Court, the General Assembly resolution 58/318 of 13 September 2004. Available at: https://www.un.org/sites/www.un.org.ola/files/documents/2018/10/un-icc-relationship-agreement.pdf

22. The implications for Council of Europe member states of the ratification of the Rome Statute of the İnternational Criminal Court. Conclusions of the Consultation (Strasbourg, 16-17 May 2000). Available at: https://digitallibrary.un.org/record/459085/usage?v=pdf

23. United Nations Charter. Available at: https://www.un.org/en/about-us/un-charter

24. UNDP and the International Criminal Court Sign New Partnership Agreement, October 27, 2022. Available at: https://www.undp.org/news/undp-and-international-criminal-court-sign-new-partnership-agreement#:~:text=New%20York%20%2D%20The%20International% 2 0Criminal,and%20effectively%20in%20the%20field.

25. Webinar on "Victims before the ICC" with partner universities in Asia-Pacific 27 October 2023. Available at: https://www.icc-cpi.int/about/cooperation/webinar-victims-icc-partner-universities-asia-pacific

**Əsgərova M.P.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.53-65**
**UOT: 343.1**

# Beynəlxalq Cinayət Məhkəməsinin beynəlxalq təşkilatlarla və QHT-lərlə hüquqi məsələlər üzrə əməkdaşlıq məsələləri

**Xülasə:** Məqalə Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyətinin həyata keçirilməsində beynəlxalq təşkilatların və QHT-lərin iştirakı məsələlərinin araşdırılmasına həsr edilmişdir. Məhkəmənin beynəlxalq təşkilatlarla münasibətləri qarşılıqlı hüquqi xarakter daşıyır. Beynəlxalq təşkilatlar Məhkəmə ilə əsasən informasiya və sənədlərin təqdim edilməsi və açılması, vasitəçilik, məhkəmə qərarlarının icra edilməsində yardım göstərilməsi kimi sahələrdə əməkdaşlıq edir. Məhkəmənin beynəlxalq təşkilatlarla əməkdaşlığı prosessual xarakter daşıyır və prosessual hərəkətlərin deyil, prosessual xarakterli digər hərəkətlərin icra olunmasına yönəldilmişdir. Hesab edirik ki, Azərbaycan Respublikasında QHT-lə cinayət təqibi orqanlarının əməkdaşlığının həyata keçirilməsi üçün ümumi qanunvericilik əsasları vardır. Belə əməkdaşlıq məhkəməyəqədər icraat dövründə daha məqsədəmvafiqdir. Beynəlxalq Cinayət Məhkəməsinin yerli QHT-lərlə əməkdaşlığı ilə bağlı məhdudiyyətlər yoxdur.

**Açar sözlər:** Beynəlxalq Cinayət Məhkəməsi; beynəlxalq təşkilatlar; vasitəçillər; məhkəmə yardım;, informasiyanın və ya sənədlərin təqdim edilməsi və açılması.

♦ **Əsgərova Mətanət Paşa qızı** - hüquq elmləri doktoru, professor, Ədliyyə Akademiyası (Azərbaycan). E-mail: matanatasgarova@yahoo.com

Beynəlxalq Cinayət Məhkəməsinin (Məhkəmə) Statutunun 89-cu maddəsinin 6-cı bəndinə əsasən Məhkəmə istənilən hökumətlərarası təşkilatdan məlumat və ya sənədlərin təqdim edilməsini xahiş edə bilər. Məhkəmənin beynəlxalq təşkilatlarla əməkdaşlığı hüquqi xarakter daşıyır və onun fəaliyyətinin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Məhkəmə, həmçinin təşkilatla razılaşdırılması mümkün olan və onun müvafiq səlahiyyətlərinə və ya mandatına uyğun gələn digər əməkdaşlıq və yardım formalarını da xahiş edə bilər. Bundan başqa Məhkəmənin Prokuroru cinayətlər haqqında məlumatlar əsasında "proprio motu" iş başlamaq üçün əvvəlcə təqdim edilmiş məlumatların ciddiliyini qiymətləndirir və dövlətlərdən, BMT orqanlarından, hökumətlərarası və ya qeyri-hökumət təşkilatlarından və ya bu məqsədlə uyğun bildiyi digər etibarlı mənbələrdən Məhkəmənin olduğu yerdə yazılı və ya şifahi sübutlar ala bilər.

Məhkəmənin beynəlxalq təşkilatlarla əməkdaşlığı bir neçə istiqamətdə həyata keçirirlir: Məhkəmənin fəaliyyətinin müdafiə edilməsi və həyata keçirilməsinə yardım edilməsi, Məhkəmənin Statutunun ratifikasiya edilməsinin və qərarlarının icra edilməsinin təşviq edilməsi, Məhkəmə ədalət mühakiməsini həyata keçirərkən lazımi sənədlər və informasiya ilə təmin edilməsi.

Məhkəmənin fəaliyyətinin uğurla həyata keçirilməsi və səmərəliliyi üçün əməkdaşlıq vacibdir. Əməkdaşlıq həm hüquqi yardım, həm də hüquqi məsələlərlə bağlı əməkdaşlığa aid ola bilər. Hüquqi məsələlərlə bağlı əməkdaşlığa həmçinin potensialın artırılması, qabaqcıl təcrübə və biliklərin verilməsi, qanunvericilik sahəsində əməkdaşlıq, məsələn, qanunvericilik layihələrinin tərtib edilməsində köməklik, həmçinin hüquq tətbiqedici təcrübədə və informasiya texnologiyaları sahəsində köməklik daxildir. Əslində bu sahələri texniki əməkdaşlıq adlandırırlar. Ancaq hesab edirik ki, bu texniki əməkdaşlıq da hüquqi məsələlər üzrə əməkdaşlığın bir formasıdır, Məhkəmənin fəaliyyətinin səmərəli həyata keçirilməsinə xidmət edir. Yardım seminarların, elektron təlimlərin, müşavirələrin keçirilməsi, tanışlıq turlarının və ekspert missiyalarının təşkili formasında ola bilər. Məsələn, 14-15 noyabr 2023-cü il tarixlərində Məhkəmə və Koreya Respublikası Hökuməti "Beynəlxalq Cinayət Məhkəməsi və Roma Statutunun keçmişi, bu günü və gələcəyi - daha böyük regional həmrəylik naminə baxış" mövzusunda yüksək səviyyəli regional seminar [11], Asiya-Sakit Okean regionunda tərəfdaş universitetlərlə "BCM-də qurbanlar" mövzusunda vebinar keçirilmişdir [25].

Statutun 2-ci maddəsinə uyğun olaraq, Məhkəmə BMT ilə münasibətlərini İştirakçı dövlətlərin Assambleyası tərəfindən bəyənilən Sazişlə müəyyən edir. BMT və Məhkəmə arasında münasibətlər haqqında Saziş [21] BMT-nin bütün qurumları və bölmələri arasında əməkdaşlıq üçün ümumi çərçivəni müəyyən edir. İştirakçı dövlətlər Assambleyasının Katibliyi, Məhkəmənin bölmələri BMT ilə əməkdaşlıqda yaxından iştirak edirlər. Məhkəmə ilə BMT arasında institusional əlaqələr qarşılıqlı təmsilçilik əsasında qurulmuşdur. Təhlükəsizlik Şurası Məhkəmənin fəaliyyətinə aid məsələlərə baxarkən, Məhkəmənin sədri və ya Prokuror onun dəvəti ilə Məhkəmənin yurisdiksiyasına aid olan məsələlərlə bağlı yardım göstərmək üçün Şuraya gələ bilər.

Sazişin III hissəsi əməkdaşlıq və məhkəmə yardımı məsələlərinə həsr edilmişdir. Sazişin 15-ci maddəsinə əsasən, BMT Məhkəmə ilə əməkdaşlıq etməyi öz üzərinə götürür və Məhkəmə tərəfindən tələb olunan məlumat və sənədləri təqdim edir. Belə ki, Statutun 87-ci maddəsinin 6-cı maddəsinə əsasən, Məhkəmə istənilən hökumətlərarası təşkilatdan informasiya və ya sənədlər təqdim edilməsini xahiş edə bilər. Həmçinin əməkdaşlıq informasiya və sənədlərin təqdim edilməsi ilə məhdudlaşmır, Məhkəmə xahiş etdiyi təşkilatla razılaşdırmaqla, digər formalarda da yardım

göstərilməsini tələb edə bilər. İnformasiyanın və ya sənədlərin açılması və ya əməkdaşlıq BMT-nin fəaliyyətdə olan və ya keçmiş əməkdaşları üçün təhlükə yaradarsa və ya BMT tərəfindən hər-hansı əməliyyatın və ya tədbirlərin lazımi qaydada keçirilməsini və ya təhlükəsizliyini pozarsa, Məhkəmə müdafiənin təmin olunması üçün lazımi tədbirlərin qəbul edilməsi haqqında həm özünün təşəbbüsü ilə, həm də BMT-nin xahişi ilə sərəncam verə bilər. Məhkəmə yardımına həmçinin BMT əməkdaşlarının şahid ifadələrini verməsi daxildir. Məhkəmə BMT-nin hər-hansı əməkdaşından şahidm kimi ifadə verməsini xahiş etdikdə, BMT həmin əməkdaşa münasibətdə konfidensiallığın saxlanılması haqqında öhdəliyindən imtina edir. Baş katib belə şahidlərə kömək etmək üçün Məhkəmənin icazəsi ilə BMT nümayəndəsini təyin edə bilər.

BMT bir neçə sülh qoruma əməliyyatlarda ev sahibi dövlətlərin beynəlxalq cinayət ədalət mühakiməsi orqanları ilə əməkdaşlıq etmək vəzifəsini dəstəkləmişdir. Belə ki, bir sıra hallarda fəal hərbi əməliyyatlar BMT missiyalarının da Məhkəməyə yardım göstərməsinə mane ola bilər, belə maneçilik şahidlərin, zərərçəkmişlərin qorxudulması, ələ alınması və s. ilə bağlı ola bilər. Məhkəmənin fəaliyyətinin həyata keçirilməsi üçün sülh qoruma əməliyyatlarının dəstəyi çox vacibdir. Məsələn, Təhlükəsizlik Şurasının (2014) Qətnaməsinə [3] əsasən Mərkəzi Afrika Respublikasında Milli Keçid Şurası dəyişdirildi və cinayətkarların müəyyən edilməsi və mühakimə olunması və bu cür pozuntuların və ya hüquqlardan sui-istifadə olunmasının qarşısının alınması və s. məsələlərin həllində yardım edildi.

Məhkəmə ilə BMT arasında Sazişdə Təhlükəsizlik Şurası ilə Məhkəmə arasındakı münasibətlər də tənzim olunur. Statutda da qeyd olunduğu kimi Məhkəmədə iş başlanılması üçün əsaslardan biri də situasiyanın Məhkəməyə Təhlükəsizlik Şurası tərəfindən verilməsidir. Məhkəmə və Təhlükəsizlik Şurası arasındakı münasibətlər qarşılıqlı xarakter daşıyır. Belə ki, Statutun 13-cü maddəsinin (a) bəndinə əsasən Məhkəmənin yurisdiksiyasına aid olan bir və ya bir neçə cinayət törədildikdə Təhlükəsizlik Şurasının qərarı və müvafiq sənədlər və materiallar BMT-nin Baş katibi vasitəsilə Prokurora göndərilir.

Prokuror və BMT və ya onun proqramları, fondları və idarələri ilə məlumatların məxfiliyinin, hər hansı bir şəxsin müdafiəsinin təmin edilməsi və s. məqsədlərlə əməkdaşlığı asanlaşdırmaq üçün zəruri ola biləcək razılaşmalar bağlaya bilərlər. Məhkəmə BMT-də və ya nəzarətində olan və hər hansı dövlət, hökumətlərarası və ya beynəlxalq təşkilat tərəfindən məxfilik şəraitində ona açıqlanmış məlumat və ya sənədləri təqdim etməyi tələb edə bilər. Məhkəmənin iştirakçısı olan dövlət belə sənədləri təqdim etmirsə, BMT Məhkəməni məlumatladırır və açıqlama məsələsi müvafiq iştirakçı dövlət və Məhkəmə tərəfindən həll edilir. Məlumatı açıqlamaqdan imtina edən dövlət Statutun iştirakçısı olmadıqda BMT tələb olunan məlumatların verilməsini təmin edə bilməyəcəyini Məhkəməyə bildirir və əvvəlcədən üzərinə götürdüyü konfidensiallığın qorunması öhdəliyinə əsaslanır.

BMT və Məhkəmənin Prokuroru arasında BMT-nin Kot-d'İvuarda BMT əməliyyatlarının aparılması ilə bağlı Anlaşma Memorandumuna əsasən [15] Prokurorun sülhyaratma əməliyyatları ilə bağlı bütün sənədlərə və informasiyaya çıxışının təmin olunması, hüquqi yardımla bağlı köməklik göstərilməsi məsələləri həll olunmalıdır.

Məhkəmə və BMT-nin İnkişaf Proqramı arasında Məhkəməyə əməliyyat dəstəyini asanlaşdıracaq Çərçivə Sazişi [24] imzalanmışdır. Sazşə əsasən İnkişaf Proqramı Məhkəmənin proqram və fəaliyyətlərini daha səmərəli həyata keçirməyə kömək etməsini öz üzərinə götürür. Bu yardımın məqsədi beynəlxalq ictimaiyyəti narahat edən ən ağır cinayətlərin araşdırılmasında və cinayətkarların mühakimə edilməsində yardım göstərilməsidir.

UNESCO ilə Qurbanların məqsədli Fondu adından fəaliyyət göstərən Məhkəmə arasında çərçivə sazişi (10 sentyabr 2021) [9] Timbuktu (Mali) mədəni irsinin qorunmasına və mədəni irsə qarşı cinayətlərin qurbanlarına kompensasiya ödənilməsinə yönəlmiş "Timbuktu mühafizə olunan memarlıq abidələrinin bərpası və təşviqi" layihəsinin həyata keçirilməsi məqsədilə imzalanmışdır. Məqsədli Qrup ikili mandata malikdir: (i) məhkəmənin qərarı ilə təyin olunan zərərin ödənilməsinin həyata keçirilməsi və (ii) qurbanlara və onların ailələrinə fiziki, psixoloji və maddi dəstək göstərmək. Zərərçəkmişlərə öz icmalarında layiqli və uzunmüddətli həyata qayıtmağa kömək etməklə Qrup bərpaedici ədaləti və barışığı təşviq edir və davamlı sülhün əldə edilməsinə kömək etməyə çalışır.

Vətəndaş cəmiyyəti təşkilatları Məhkəmənin yaradılması ideyasının yayılmasında və müdafiə edilməsində mühüm rol oynamış və hazırda da Məhkəmə haqqında məlumatlılığın artırılmasında yaxından iştirak edirlər. Məhkəmənin araşdırma apardığı ölkələrdə vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşlər və s. tədbirlər keçirilir. Məhkəmənin Haaqadakı iqamətgahında beynəlxalq və yerli QHT nümayəndələri ilə qarşılıqlı maraq doğuran məsələlərə dair iki ildən bir dəyirmi masa keçirilir. Bundan əlavə, QHT üzvləri İştirakçı dövlətlər Assambleyasının sessiyalarında müşahidəçi kimi iştirak edirlər.

QHT-lər Məhkəmənin fəaliyyətində vasitəçi kimi də iştirak edə bilərlər, Məhkəmə vasitəçilərin onun fəaliyyətində iştirakı ilə bağlı təlimatlar qəbul edir. Vasitəçi bir tərəfdən Məhkəmənin və ya vəkillərin orqan və ya bölmələrindən biri ilə digər tərəfdən zərərçəkmişlər, şahidlər, təzminat tələb edən və/və ya təsirə məruz qalmış icmalar arasında əlaqəni asanlaşdıran və ya əlaqəni təmin edən şəxs və ya qurumdur. Məhkəmənin və ya vəkillərin orqanı və ya bölməsi vasitəçilərə yardım göstərilməsi üçün müraciət etmirlər, onlar özləri könüllü olaraq vasitəçi qismində öz yardımlarını təklif edirlər. Lakin bu vasitəçilik Məhkəmə və vəkillərin müxtəlif orqanları və ya bölmələrinin müxtəlif funksiyaları yerinə yetirmək üçün istifadə etdikləri müxtəlif kateqoriyalı vasitəçilərdən fərqlənir. Roma Statutunun 79-cu maddəsinə uyğun olaraq, vasitəçilər adətən, ictimai məlumatlandırma fəaliyyətlərinə kömək edirlər; sübut daşıyıcılarını və/və ya şahidləri müəyyən etməkdə və potensial şahidlərlə daha asan təmas qurmaqla araşdırma aparılmasına kömək edir; ərizə təqdim edilməsi, nümayəndəlik və ya təzminatla bağlı qurbanlara kömək edir; Məhkəmə ilə birbaşa əlaqənin zərər çəkmiş şəxsin/şahidin təhlükəsizliyinə təhlükə yarada biləcəyi hallarda onlarla ünsiyyət qurur və s.

"Məhkəmə ilə əlaqələri əməkdaşlıq müqavilələrinə (məsələn, memorandumlara və milli icra qanunvericiliyə) əsaslanan qurumlar da vasitəçi hesab edilmir" [10]. Vasitəçiliklə bağlı qaydalar BMT, hökumətlərarası təşkilatlar, bu sahədə fəaliyyət göstərən beynəlxalq qeyri-hökumət təşkilatları, dövlət orqanları və milli hakimiyyət orqanları kimi qurumları da əhatə edir.

Vasitəçi Məhkəmənin və ya vəkillərin orqanı və ya bölməsi ilə birdəfəlik və ya uzun müddət ərzində və/və ya çoxsaylı ünsiyyət vasitəsilə əməkdaşlıq edə bilər. Müvafiq vasitəçiləri müəyyən etmək üçün Məhkəmə və vəkillərin orqanları və bölmələri mümkün qədər tez bir zamanda potensial vasitəçinin (şəxsin/təşkilatın) müəyyən edilmiş funksiyaları yerinə yetirmək qabiliyyətinin qiymətləndirilməsini həyata keçirməlidir. Bu məqsədlə onlar ətraflı məlumat toplamalı və potensial vasitəçi haqqında profil hazırlamalıdır. Potensial vasitəçinin qeyd olunan orqanlarla münasibətləri və öhdəliklərini yerinə yetirmək üçün uyğun olmaları qiymətləndirilir. Qiymətləndirmə zamanı vasitəçinin məxfiliyə sadiqlik, məlumatın məxfiliyinə hörmət etmək istəyi və bacarığı; dürüst hərəkət etmək və qurbanların/şahidlərin/təqsirləndirilənlərin ləyaqətinə, rifahına və şəxsi həyatına hörmət nümayiş etdirmək istəyi və bacarığı; məhkəmə qərarlarına və qüvvədə olan qaydalara uyğun

olaraq fəaliyyət göstərmək istəyi və bacarığı; qarşılıqlı əlaqə nəticəsində yaranan riski, funksiyaları yerinə yetirmək üçün psixo-sosial durumu; nəticələri əldə etmək bacarığı; təsirə məruz qalan icmalara mədəni, sosial və linqvistik yaxınlıq, regional, milli və ya yerli sosial-siyasi kontekst haqqında bilik və anlayış, təsirə məruz qalan əhaliyə və/yaxud xüsusi qruplara coğrafi və ya sosial yaxınlıq və s. qiymətlənirilir.

Məhkəmə və İnterpol arasında əməkdaşlıq daha intensiv xarakter daşıyır. Məhkəmənin Prokurorluğu ilə Beynəlxalq Cinayət Polisi Təşkilatı arasında əməkdaşlıq Sazişi [5] qeyd edir ki, əməkdaşlığın əsas məqsədi cinayətlərin qarşısının alınması və cinayət mühakiməsi sahəsində, o cümlədən polis məlumatlarının mübadiləsi və cinayətlərin təhlilinin aparılması, qaçmış şəxslərin və şübhəli şəxslərin axtarışı sahəsində əməkdaşlıq üçün çərçivə yaratmaq, İnterpol bildirişlərinin nəşri və yayılması, məlumatların ötürülməsi, İnterpolun telekommunikasiya şəbəkəsinə və məlumat bazalarına çıxışın təmin edilməsidir. Məlumat mübadiləsi İnterpolun tətbiq olunan qaydaları ilə müəyyən edilmiş polis məlumatları da daxil olmaqla, məlumat mübadiləsini nəzərdə tutur. Lakin məlumat mübadiləsi zamanı konfidensiallığa riayət edilməlidir. İnterpolun Baş Katibliyindən sorğuların icrasının asanlaşdırılması üçün bütün növ İnterpol bildirişləri dərc edilməli və Milli Mərkəzi Bürolara göndərilməlidir. Axtarışda olan şəxslər barədə məlumatların dövriyyəsi və belə şəxslərin təqibdən yayınmasının qarşısını almaq üçün qırmızı bildirişlər; əlavə məlumat, məsələn, təqsirkarlar və ya əsas şahidlər haqqında, əldə etmək üçün mavi bildirişlər; itkin düşmüş şəxslərin axtarışı üçün sarı bildirişlər; və cəsədlərin tanınmasını asanlaşdırmaq üçün qara bildirişlər nəzərdə tutulmuşdur.

01 iyun 2006-cı ildə İnterpol Şimali Uqandada hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərdə şübhəli bilinən beş şəxs üçün Məhkəmə adından ilk axtarış elanları vermişdir. İnterpolun qırmızı bildirişləri, hamısı "Rəbbin Müqavimət Ordusu"nun üzvləri olan və qətl, zorlama və uşaqların məcburi hərbi xidmətə cəlb edilməsi də daxil olmaqla, bir sıra cinayətlərdə ittiham olunan kişilər üçün Məhkəmə tərəfindən verilən həbs orderlərinə əsaslanır [12].

Məhkəmənin orqanları və bölmələri də İnterpolla əməkdaşlığa mühüm əhəmiyyət verirlər. Belə əməkdaşlığa İnterpolun prezidenti ilə Məhkəməinin sədrinin görüşləri, əməkdaşlığın qiymətləndirilməsi və gələcək istiqamətlərin müəyyən edilməsi də aiddir. Məsələn, 7 sentyabr 2012-ci ildə Məhkəmənin prezidenti İnterpolun soyqırım, insanlığa qarşı cinayətlər və müharibə cinayətləri ilə bağlı potensialın gücləndirilməsində, eləcə də əməliyyat cinayətlərinin araşdırılmasında rolunun, Məhkəmənin təşəbbüsləri üçün İnterpol tərəfindən verilən dəstəyin vacibliyini etiraf etdi [13].

Avropa İttifaqı və Məhkəmə arasında əməkdaşlıq haqqında Sazişlər [2,6,7] Məhkəmənin fəaliyyətinin dəstəklənməsinə və Statutda iştirakçılığın genişləndirilməsinə həsr edilmişdir. Sazişə əsasən hər iki tərəf qarşılıqlı maraq doğuran məsələlər üzrə məsləhətlər keçirilməsini nəzərdə tuturlar. Avropa İttifaqı Məhkəmənin yurisdiksiyasına aid olan məsələlərlə bağlı yardım göstərmək üçün Məhkəməni onun himayəsi altında təşkil edilən və Məhkəməni maraqlandıran məsələlərin müzakirə edildiyi iclas və konfranslarda iştirak etməyə dəvət edə bilər.

BQXK-nın əməkdaşları şahidlik immunitetinə malikdirlər [20]. BQXK-nin fəaliyyətinin əsasını təşkil edən qərəzsizlik, neytrallıq və konfidensiallıq kimi prinsiplər, əsasən də konfidensiallıq prinsipi onun fəaliyyətin səmərəli həyata keçirməsi üçün çox vacibdir. Simic işi üzrə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının qərarında qeyd edilmişdir ki, "73... BQXK və onun sərəncamında olan əməkdaşlarla bağlı informasiyanın yayılmaması barədə müsbət ifadə olunmuş öhdəlik götürmüşdür və BQXK-nin belə yayılmamanı israr etmək hüququ vardır. …

Məhkəmə kamerasına belə qərara gəlməyə imkan verir ki, BQXK-nin beynəlxalq adət hüququna əsasən onun fəaliyyətinə aid olan informasıyanı açıqlamamaq hüququ vardır” [8].

BQXK dövlətlərə müharibə cinayətlərinin təqibinin labüdlüyündən çıxış edir və bununla bağlı Məhkəmənin Statutundan istifadə edir. Belə ki, Statutda müharibə cinayətlərinin elementləri müəyyən edilmiş və siyahısı verilmişdir. 2006-cı ilin aprelindən BQXK Məhkəmənin yurisdiksiyasında saxlanılan bütün şəxslərə baş çəkmək səlahiyyətinə malikdir və bununla bağlı Saziş [3] imzalanmışdır. Belə başçəkmələr sırf humanitar məqsədlə həyata keçirilir və bütün saxlanılan şəxslərlə beynəlxalq standartlara uyğun davranılmasını təmin etmək məqsədi daşıyır.

BQXK-nın tibbi nümayəndələri seçdikləri bütün məhkumlarla təkbətək söhbət etmək və onları müayinə etmək hüququna malikdirlər. Bu məqsədlə onlara yer ayrılmalıdır və tibbi sənədləri ilə tanış olmaq üçün tibbi nümayəndələrə icazə verilir.

BQXK nümayəndələri məhkumların ailələri ilə əlaqə saxlaya bilərlər. BQXK başçəkmələrdən sonra öz nəticələri haqqında tövsiyə xarakterli hesabat tərtib edir, lazım gəldikdə, Məhkəmənin Sədrinə və Qeydiyyatçına təqdim edir. BQXK öz hesabatlarında qaldırdığı humanitar məsələlərlə bağlı Məhkəmə ilə dialoq aparır, Məhkəmə tövsiyələrin yerinə yetirilməsi üçün hər cür səy göstərir, cavab olaraq görülən hər hansı tədbirlər barədə BQXK-ya yazılı məlumat verir. Məhkumların saxlanma şəraiti və onlarla rəftara dair hesabatlar, həmçinin Məhkəmə ilə digər məlumatların məzmunu BQXK-nin siyasətinə uyğun olaraq məxfi saxlanılır.

Statutun ratifikasiyasını təşviq edən və məlumatlar mübadiləsində yaxından iştirak edən beynəlxalq təşkilatlardan biri də Avropa Şurasıdır. Statutun ratifikasiyası və onun Avropa Şurasının üzv dövlətləri üçün təsirləri ilə bağlı məsləhətləşmələrin nəticələrində [22] qeyd olunur ki, ratifikasiya müvafiq dövlətdən Statutdan irəli gələn öhdəliklərin yerinə yetirilməsinin təmin olunmasını tələb edir və hər bir dövlətin spesifik xüsusiyyətləri nəzərə alınaraq, beynəlxalq əməkdaşlıq və məhkəmə yardımı sahəsində qanunvericilik aktları uyğunlaşdırılmalıdır.

Parlament Assambleyası Məhkəmənin yaradılması ilə bağlı hesabatında [16] Məhkəmənin yaradılmasını müdafiə etdi. Parlament Assambleyası 1408 (1999) saylı Tövsiyəsində [14] Statutun universal ratifikasiyası və onun daxili sistemlərdə effektiv tətbiqi, habelə hüquq müdafiəsinin təmin edilməsində iştirakçı dövlətlərin və digər dövlətlərin sıx əməkdaşlığına inandığını bəyan etdi. Parlament Assambleyası “Məhkəmə ilə əməkdaşlıq və onun universallığı” adlı qətnaməsində [18] Məhkəməni ilk daimi müstəqil tamamlayıcı məhkəmə qurumu kimi tanıdığını bir daha bəyan etdi və qoşulmamış dövlətləri iştirakçılığa çağırdı.

Qeyd olunanları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Məhkəmənin beynəlxalq təşkilatlarla əməkdaşlığı ümumi sazişlər və xüsusi məsələlərin həll edilməsinə yönəldilmiş razılaşmalarla tənzim olunur. Məhkəmənin fəaliyyətində beynəlxalq təşkilatlardan informasiya və sənədlərin əldə edilməsi Məhkəmənin əsas məqsədinin, beynəlxalq əhəmiyyət kəsb edən cinayətlərin törədilməsində təqsirli şəxslər üzərində ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edir. Beynəlxalq təşkilatların təqdim etdilkəri sənədlər və informasiya sübut qismində mühüm rol oynayır, şahidlərin qorunmasına, bəzi hallarda Məhkəmənin fəaliyyətinin səmərəli həyata keçirilməsinə xidmət edir. Məhkəmə tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi və Məhkəmənin qərarlarının icrası zamanı insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipinin pozulmamasının təmin edilməsi, o cümlədən vasitəçiliyin həyata keçirilməsi, beynəlxalq təşkilatların monitorinqi mühüm əhəmiyyət kəsb edir. Məhkəmə və beynəlxalq təşkilatlar arasında hüquqi məsələlərlə bağlı əməkdaşlıq bir sıra hallarda hüquqi yardım xarakteri daşıyır. Belə ki, Məhkəmə məlumatların və sənədlərin

verilməsi ilə bağlı sorğular verir və əməkdaşlıq barəsində müqavilə bağladığı təşkilatlar tərəfindən bu sorğuların icra olunması məcburi xarakter daşıyır. Məhkəmənin beynəlxalq təşkilatlarla əməkdaşlığı prosessual xarakter daşıyır və prosessual hərəkətlərin deyil, digər hərəkətlərin icra olunmasına yönəldilmişdir. Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələrin beynəlxalq məhkəmələrin sorğularının icra olunması imkanı nəzərdə tutulur, ancaq qərarların icrası və şahidlərin müdafiəsi və s. fəaliyyətin təmin olunmasında QHT-lərin iştirakı nəzərdə tutulmur. Ancaq bu gün Azərbaycanda insan alverinə qarşı mübarizədə, məişət zorakılığının qarşısının alınmasında QHT-lərlə əməkdaşlıq nəzərdə tutulur. Cinayət təqibi orqanlarının CPM-nin 124.2.5-ci maddəsinə əsasən QHT-lərdən digər sənədlər qismində sübut əhəmiyyəti olan sənədlərin tələb edilməsi, CPM-nin 205-ci maddəsinə əsasən hüquqi şəxslərin (vəzifəli şəxslərin) törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatları cinayət işinin başlanılması üçün əsaslardan biridir. CPM-nin 6.1-ci maddəsinə əsasən sənədlərin verilməsi hüquqi şəxslər kimi QHT-lər üçün məcburidir. QHT-lər çox vaxt zərərçəkmişlərə (məsələn, məişət zorakılığının və ya insan alveri qurbanlarına) və şahidlərə (yaşadıqları ərazi üzrə) yaxın olurlar. QHT-lər cinayət təqibi orqanlarının qurbanlar və şahidlərlərlə münasibətlərinin qurulmasında, onların məlumatlandırılmasında, təhlükəsizliklərinin təmin olunmasında köməklik göstərə bilərlər. Məhkəmənin yerli QHT-lərin əməkdaşlığı ilə bağlı məhdudiyyətlər yoxdur.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46950

2. Agreement between the International Criminal Court and the European Union on cooperation and assistance, 10th April 2006. [Elektron resurs]. URL: https://www.icc-cpi.int/sites/default/files/NR/rdonlyres/6EB80CC1-D717-4284-9B5C-03CA028E155B/140157/ICCPRES010106_English.pdf

3. Agreement between the International Criminal Court and the International Committee of the Red Cross on Visits to Persons deprived of Liberty Pursuant to the Jurisdiction of the International Criminal Court ICC-PRES/02-01-06 Date of signature: 29th March 2006 and 13th April 2006. [Elektron resurs]. https://www.icc-cpi.int/sites/default/files/NR/rdonlyres/ A542057C-FB5F-4729-8DD4-8C0699DDE0A3/140159/ICCPRES020106_English.pdf

4. Cinayət işlərinə dair hüquqi yardım haqqında Azərbaycan Respublikasının Qanunu, 29 iyun 2001-ci il, № 163-IIQ. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/2804

5. Co-operation Agreement between the Office of the Prosecutor of the International Criminal Court and the International Criminal Police Organization. 2005-03-22. [Elektron resurs]. URL: https://www.jus.uio.no/english/services/library/treaties/04/4-06/interpol-cooperation-ag-icc.html

6. Council decision 2011/168/CFSP of 21 March 2011 on the International Criminal Court and repealing Common Position, 2003/444/CFSP. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/eli/dec/2011/168/oj https://eur-lex.europa.eu/eli/dec/2011/168/oj

7. Decision 2006/313 - Conclusion of the Agreement with the International Criminal Court on cooperation and assistance, April 2006. [Elektron resurs]. URL: https://www.eumonitor.eu/9353000/1/j4nvk6yhcbpeywk_j9vvik7m1c3gyxp/vi8rm2zhouyw

8. Ex parte confidential decision on the prosecution motion under Rule 73 for a Rulling concerning the testimony of a witness. Prosecutor v. Blagoje Simic, Milan Simic, Miroslav Tadic, Stevan Todorovic, Simo Zaric, 27 July 1999. [Elektron resurs]. URL: https://www.icty.org/x/cases/simic/tdec/en/90727EV59549.htm

9. Framework agreement between UNESCO and the International Criminal Court, acting in relation to the Trust Fund for Victims (10 September 2021). [Elektron resurs]. URL: https://unesdoc.unesco.org/ark:/48223/pf0000378781

10. Guidelines Governing the Relations between the Court and Intermediaries for the Organs and Units of the Court and Counsel working with intermediaries. 17 March 2014. [Elektron resurs]. URL: https://www.icc-cpi.int/sites/default/files/GRCI-Eng.pdf

11. High-Level Regional Seminar “The International Criminal Court and the Asia-Pacific: past, present and future of the Rome Statute – vision for greater regional solidarity” (14-15 November 2023). [Elektron resurs]. URL: https://www.icc-cpi.int/about/cooperation/high-level-regional-seminar-international-criminal-court-and-asia-pacific-past

12. Interpol issues first Red Notices on behalf of International Criminal Court. [Elektron resurs]. URL: https://www.interpol.int/News-and-Events/News/2006/INTERPOL-issues-first-Red-Notices-on-behalf-of-International-Criminal-Court

13. Interpol and ICC meeting focuses on cooperation. 07 September 2012. [Elektron resurs]. URL: https://www.interpol.int/News-and-Events/News/2012/INTERPOL-and-ICC-meeting-focuses-on-cooperation

14. International Criminal Court – Recommendation 1408 (1999) of the Parliamentary Assembly. [Elektron resurs]. URL: https://rm.coe.int/16804d8320

15. Memorandum of Understanding between the United Nations and the International Criminal Court concerning cooperation between the United Nations Operation in Côte d’Ivoire (UNOCI) and the Prosecutor of the International Criminal Court (with annexes). New York, 20 January 2012 and 23 January 2012. [Elektron resurs]. URL: https://treaties.un.org/Pages/showDetails.aspx?objid=08000002803099e7

16. Report on the establishment of an international court to try serious violations of international humanitarian law and on the setting up of a mechanism for the protection of human rights in European states not members of the Council of Europe Doc. 6902**,** 28 July 1993. [Elektron resurs]. URL: https://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewHTML.asp? FileID=7254& lang=EN

17. Resolution 2149 (2014) Adopted by the Security Council at its 7153rd meeting, on 10 April 2014. [Elektron resurs]. URL: https://www.un.org/securitycouncil/s/res/2149-%282014%29

18. Resolution 1644 (27 January 2009) of the PACE, Co-operation with the International Criminal Court (ICC) and its universality. [Elektron resurs]. URL: https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17701&lang=en

19. Rome Statute of the International Criminal Court. [Elektron resurs]. URL: https://www.icc-cpi.int/sites/default/files/RS-Eng.pdf

20. The Fundamental Principles of the International Red Cross and Red Crescent Movement: ethics and tools for humanitarian action / ICRC, International Federation of Red Cross and Red Crescent Societies. November 2015. [Elektron resurs]. URL: https://library.icrc.org/ library/search/notice?noticeNr=42606

21. The Relationship Agreement between the United Nations and the International Criminal Court, the General Assembly resolution 58/318 of 13 September 2004. [Elektron resurs]. URL:

https://www.un.org/sites/www.un.org.ola/files/documents/2018/10/un-icc-relationship-agreement.pdf

22. The implications for Council of Europe member states of the ratification of the Rome Statute of the İnternational Criminal Court. Conclusions of the Consultation (Strasbourg, 16-17 May 2000). [Elektron resurs]. URL: https://digitallibrary.un.org/record/459085/usage?v=pdf

23. United Nations Charter. [Elektron resurs]. URL: https://www.un.org/en/about-us/un-charter

24. UNDP and the International Criminal Court Sign New Partnership Agreement, October 27, 2022. [Elektron resurs]. URL: https://www.undp.org/news/undp-and-international-criminal-court-sign-new-partnership-agreement#:~:text=New%20York%20%2D%20The%20I nternational%20Criminal,and%20effectively%20in%20the%20field.

25. Webinar on "Victims before the ICC" with partner universities in Asia-Pacific 27 October 2023. [Elektron resurs]. URL: https://www.icc-cpi.int/about/cooperation/webinar-victims-icc-partner-universities-asia-pacific

**Аскерова М.П.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.53-65**
**УДК: 343.1**

## Вопросы сотрудничества Международного уголовного суда с международными организациями и НПО по правовым вопросам

**Аннотация:** Исследуется участие международных организаций и НПО в осуществлении деятельности Международного уголовного суда.Отношения Суда с международными организациями носят взаимный правовой характер.Международные организации с Судом сотрудничают преимущественно в сферах предоставления и раскрытия информации и документов, посредничества, содействия исполнению решений Суда. Сотрудничество Суда с международными организациями носит процессуальный характер и направлено на совершение не процессуальных действий, а на иных действий процессуального характера. Считаем, что в Азербайджанской Республике существуют общие законодательные основы сотрудничества НПО и органов уголовного преследования. Такое сотрудничество более целесообразно во время досудебного производства.Отсутствуют законодательные и иные ограничения сотрудничества Международного уголовного суда с местными НПО, в том числе для представления amicus curiae briefs.

**Ключевые слова:** Международный уголовный суд; международные организация; посредники; судебная помощь; представление и раскрытие информации или документов.

## Библиография

1. Уголовно-процессуальный кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46950 (на азерб. яз.).

♦ **Аскерова Матанят Паша кызы** – доктор юридических наук, профессор, Академия юстиции (Азербайджан). E-mail: matanatasgarova@yahoo.com

2. Agreement between the International Criminal Court and the European Union on cooperation and assistance, 10th April 2006. Available at: https://www.icc-cpi.int/sites/default/files/NR/rdonlyres/6EB80CC1-D717-4284-9B5C-03CA028E155B/140157/ICCPRES010106_English.pdf

3. Agreement between the International Criminal Court and the International Committee of the Red Cross on Visits to Persons deprived of Liberty Pursuant to the Jurisdiction of the International Criminal Court ICC-PRES/02-01-06 Date of signature: 29th March 2006 and 13th April 2006. Available at: https://www.icc-cpi.int/sites/default/files/NR/rdonlyres/ A542057C-FB5F-4729-8DD4-8C0699DDE0A3/140159/ICCPRES020106_English.pdf

4. Закон Азербайджанской Республики «О юридической помощи по уголовным делам» от 29 июня 2001 года № 163-IIQ. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/2804 (на азерб. яз.).

5. Co-operation Agreement between the Office of the Prosecutor of the International Criminal Court and the International Criminal Police Organization. 2005-03-22. Law of the Republic of Azerbaijan on legal assistance in criminal cases, June 29, 2001, No. 163-IIQ. Available at: https://www.jus.uio.no/english/services/library/treaties/04/4-06/interpol-cooperation-ag-icc.html

6. Council decision 2011/168/CFSP of 21 March 2011 on the International Criminal Court and repealing Common Position, 2003/444/CFSP. Available at: https://eur-lex.europa.eu/eli/dec/2011/168/oj https://eur-lex.europa.eu/eli/dec/2011/168/oj

7. Decision 2006/313 - Conclusion of the Agreement with the International Criminal Court on cooperation and assistance, April 2006. Available at: https://www.eumonitor.eu/9353000/1/j4nvk6yhcbpeywk_j9vvik7m1c3gyxp/vi8rm2zhouyw

8. Ex parte confidential decision on the prosecution motion under Rule 73 for a Rulling concerning the testimony of a witness. Prosecutor v. Blagoje Simic, Milan Simic, Miroslav Tadic, Stevan Todorovic, Simo Zaric, 27 July 1999. Available at: https://www.icty.org/x/cases/simic/tdec/en/90727EV59549.htm

9. Framework agreement between UNESCO and the International Criminal Court, acting in relation to the Trust Fund for Victims (10 September 2021). Available at: https://unesdoc.unesco.org/ark:/48223/pf0000378781

10. Guidelines Governing the Relations between the Court and Intermediaries for the Organs and Units of the Court and Counsel working with intermediaries. 17 March 2014. Available at: https://www.icc-cpi.int/sites/default/files/GRCI-Eng.pdf

11. High-Level Regional Seminar “The International Criminal Court and the Asia-Pacific: past, present and future of the Rome Statute – vision for greater regional solidarity” (14-15 November 2023). Available at: https://www.icc-cpi.int/about/cooperation/high-level-regional-seminar-international-criminal-court-and-asia-pacific-past

12. Interpol issues first Red Notices on behalf of International Criminal Court. Available at: https://www.interpol.int/News-and-Events/News/2006/INTERPOL-issues-first-Red-Notices-on-behalf-of-International-Criminal-Court

13. Interpol and ICC meeting focuses on cooperation. 07 September 2012. Available at: https://www.interpol.int/News-and-Events/News/2012/INTERPOL-and-ICC-meeting-focuses -on-cooperation

14. International Criminal Court – Recommendation 1408 (1999) of the Parliamentary Assembly. Available at: https://rm.coe.int/16804d8320

15. Memorandum of Understanding between the United Nations and the International Criminal Court concerning cooperation between the United Nations Operation in Côte d'Ivoire (UNOCI) and the Prosecutor of the International Criminal Court (with annexes). New York, 20 January 2012 and 23 January 2012. Available at: https://treaties.un.org/Pages/show Details.aspx?objid=08000002803099e7

16. Report on the establishment of an international court to try serious violations of international humanitarian law and on the setting up of a mechanism for the protection of human rights in European states not members of the Council of Europe Doc. 6902**,** 28 July 1993. Available at: https://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewHTML.asp?FileID=7254& lang=EN

17. Resolution 2149 (2014) Adopted by the Security Council at its 7153rd meeting, on 10 April 2014. Available at: https://www.un.org/securitycouncil/s/res/2149-%282014%29

18. Resolution 1644 (27 January 2009) of the PACE, Co-operation with the International Criminal Court (ICC) and its universality. Available at: https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17701&lang=en

19. Rome Statute of the International Criminal Court. Available at: https://www.icc-cpi.int/sites/default/files/RS-Eng.pdf

20. The Fundamental Principles of the International Red Cross and Red Crescent Movement: ethics and tools for humanitarian action / ICRC, International Federation of Red Cross and Red Crescent Societies. November 2015. Available at: https://library.icrc.org/ library/search/notice?noticeNr=42606

21. The Relationship Agreement between the United Nations and the International Criminal Court, the General Assembly resolution 58/318 of 13 September 2004. Available at: https://www.un.org/sites/www.un.org.ola/files/documents/2018/10/un-icc-relationship-agreement.pdf

22. The implications for Council of Europe member states of the ratification of the Rome Statute of the İnternational Criminal Court. Conclusions of the Consultation (Strasbourg, 16-17 May 2000). Available at: https://digitallibrary.un.org/record/459085/usage?v=pdf

23. United Nations Charter. Available at: https://www.un.org/en/about-us/un-charter

24. UNDP and the International Criminal Court Sign New Partnership Agreement, October 27, 2022. Available at: https://www.undp.org/news/undp-and-international-criminal-court-sign-new-partnership-agreement#:~:text=New%20York%20%2D%20The%20International%20Criminal,and%20effectively%20in%20the%20field.

25. Webinar on "Victims before the ICC" with partner universities in Asia-Pacific 27 October 2023. Available at: https://www.icc-cpi.int/about/cooperation/webinar-victims-icc-partner-universities-asia-pacific